# DƏYƏRLİ ZİYALILARIMIZLA FƏXR EDİRƏM!




May ayının 8-də Milli Məclisin sədr müavini, Millət vəkili hörmətli Adil Əliyevin "Sizi tanıyaq" layihəsinin rəhbərliyi ilə görüşü oldu.

Görüşdə gənc istedad kimi mən də iştirak edirdim. "Ulu Naxçıvanım" və "Könüllərə yol gəzirəm" adlı kitablarımı Adil müəllimə hədiyyə etdim. Qeyd edim ki, bu görüş "Sizi tanıyaq" layihəsi çərçivəsində hörmətli Adil müəllimlə 3-cü görüşüm idi.

Adil müəllim müəllifi olduğum kitablara baxaraq "Sən çox istedadlı gəncsən, vətənpərvər gəncsən. Səni tanıyıram, izləyirəm və sənə uğurlar arzulayıram" dedi.

Mənə olan səmimi münasibətinə, haqqımda dediyi gözəl sözlərə və məni izlədiyinə görə hörmətli Adil müəllimə dərin minnətdarlığımı bildirirəm.

Həmçinin layihə rəhbərimiz hörmətli Vüsalə xanım Qələndərliyə də dərin təşəkkürümü bildirirəm.



Vətənimlə və vətənimin biz gənclərə dəyər verən ziyalıları ilə fəxr edirəm!

***Sevindik*** Nəsiboğlu


Kredo.- 2021.- 23 iyun.- S.10.